***❐ Ekologiya və Təbii Sərvətlər Nazirliyi yarandığı qısa vaxt ərzində beynəlxalq normativlərə uyğun olaraq Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin sahəsinin daha da genişləndirilməsi üçün ardıcıl tədbirlər həyata keçirir. 2003-cü ildədək bir milli parkı belə olmayan respublikamızda hazırda 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. Bu da respublika ərazisinin 893 min hektarını təşkil edir. Təbii ki, bu, ilk növbədə, ölkə Prezidenti İlham Əliyevin Azərbaycan təbiətinə, ekologiyasına davamlı diqqət və qayğısının əyani təzahürüdür.***

# Təbiətə dövlət qayğısı dünyanın gələcəyinə zəmanətdir



Azərbaycan Prezidentinin 24 mart 2006-cı il tarixli sərəncamı ilə təsdiq edilən Milli Strategiya və Fəaliyyət Planında bildirilir ki, təbii sərvətlərin mühüm tərkib hissəsi olan bioloji müxtəliflik bütün yaşayış mühitlərində, o cümlədən quruda, dənizdə, habelə digər su ekosistemləri və ekoloji komplekslərində canlı orqanizmləri özündə birləşdirir.

XX əsrin ortalarından etibarən bioloji müxtəlifliyə və ekosistemlərə təhlükə törədən amillərin sayı artmış, insan fəaliyyəti nəticəsində ekosistemlər deqradasiyaya uğramış, bir çox fauna və flora növləri, cinslər məhv olmuş və ya onların sayı kəskin surətdə azalmağa başlamışdır. Bioloji müxtəlifliyin belə itkisi onun qorunub saxlanılması və davamlı istifadəsinə dair ciddi tədbirlərin görülməsini tələb edir.

Ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında milli parkların yaradılması xüsusi əhəmiyyət kəsb edir. Milli parklar dedikdə, təbii ki, xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi-tədqiqat idarələri statusuna malik ərazilər nəzərdə tutulur.

Azərbaycan Prezidenti İlham Əliyevin 26 sentyabr 2018-ci il tarixli sərəncamı da milli parkların yaradılması istiqamətində atılan mühüm addımlardan biridir. Həmin sərəncamla xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, biomüxtəlifliyin qorunub saxlanılması, təbii resurslardan səmərəli istifadəsini və ekoturizmin inkişafını təmin etmək məqsədi ilə Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında Qızılağac Milli Parkı yaradılmışdır.





Qeyd etmək istərdim ki, təbiətə qayğı ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin bütün dönəmlərində prioritet istiqamət olmuşdur. Pezident İlham Əliyev də son 15 ildə bu siyasəti uğurla davam etdirmişdir. Sözügedən dövrdə ekoloji qanunçuluğun bazası təkmilləşdirilmiş, dünya ekoloji standartları səviyyəsinə uyğunlaşdırılmışdır. Qızılağac Dövlət Qoruğunun statusunun indiki səviyyəyə qaldırılması da bunun bariz nümunəsidir.

Qızılağac Milli Parkı illərdən-illərə, əsrdən-əsrə böyümə, zənginləşmə, gözəlləşmə yolu keçmişdir. Əsrarəngiz bir məkanın adını ifadə edən Qızılağac anlayışı nəinki ölkəmiz üçün, bəlkə bütün dünyamız üçün yüksək təbii zövq, ekoloji tərbiyə, təbiətə vüsətli qayğı simvoludur. Bu əsrarəngiz təbiət gözəli böyük inkişaf yoluna min illər boyu qovuşmuşdur. Prezident öz sonsuz diqqət və qayğısı ilə bu möhtəşəm təbiət abidəsini gələcək nəsillər üçün qoruyur, bəzi insanların bura amansız müdaxiləsinə imkan vermir.

Təbiətimizə, ölkəmizin ekologiyasının qorunmasına dövlət başçısının göstərdiyi bu qayğı hamımızı fərəhləndirir, ilk növbədə isə biz ekoloqları. Bu gün təbiət də bu qayğıdan vəcdə gəlir, canlanır.

Təbiətin bu heyrətamiz məkanına dünyanın ən mötəbər təşkilatlarının nümayəndələri, alimləri də həvəslə gəlir, yüzlərlə canlının təhlükəsiz, xətərsiz yaşamasına zəmanət verən təbiət incisinin səxavətlə bölüşdüyü gözəlliklərdən zövq alır, yeni-yeni tədqiqatları ilə elm aləminə töhfələr verirlər.

Elə bu yaxın günlərdə BMT-nin nümayəndəsi Cənub regionuna son səfəri zamanı burada gördüyü mənzərələrdən, dövlət başçısının təbiətin qorunmasına diqqət və qayğıdan məmnun qalmışdır. Qızılağac Milli Parkının, onun ekosisteminin mühafizəsini yüksək dəyərləndirən nüfuzlu qonaq bu bölgədən nümunəvi bir ekoməkan kimi ayrıldığını dilə gətirdi.

Qızılağac Parkını müşahidə etmiş avropalı bioloq alimlər də təbiətimizin qeyri-adi gözəlliyi qarşısında heyrətə gəldilər. Körfəzin qamışlıqları arasında, Xəzərin ağ köpüklü şıltaq dalğalarının səsinə qarışan quşların nəğməsi əsrarəngiz bir simfoniya yaradırdı. Heyrətini gizlədə bilməyən professor Miroslav Şvatora dedi: "İlahi, biz hardayıq? Nağıllar aləmində, yoxsa təbiətin qoynunda? Bura ki, əsl təbii konservatoriyadır..."

Qonaq uzun müddət gözəlliyin, təbiiliyin yaratdığı qeyri-adi harmoniyanın təsirindən çıxa bilmir, təkrar-təkrar ətrafı heyranlıqla seyr edirdi. Böyük alim Qızılağac möcüzəsinin heç yerdə eşitmədiyi simfoniyasının tamaşaçısına çevrilmişdi və özü bunu təkrar etməkdən yorulmurdu. Bu təəssurat qətiyyən, mənim uydura biləcəyim bir fantaziya deyil, Qızılağacdakı zəngin flora və fauna növlərinin yaddaşlarında dərin izlər buraxdığı qonaqlarımızın qeyri-adi duyğularının təsviridir. Onlar heyranlıqla etiraf etdilər ki, buradakı nadir təbiət incilərinin bir çox növlərini heç yerdə görməyiblər.

Əlbəttə, Qızılağac Parkı, onun inkişafı mühüm tarixi-ekoloji hadisədir. Hələ XX əsrin əvvəllərində Azərbaycan Respublikasının ərazisində Xəzər dənizi boyu su-bataqlıq quşlarının Cənub istiqamətində miqrasiyası müəyyən edilmişdir. Ona görə də Qızılağac körfəzi miqrasiya edən quşların qışlaması üçün həmişə böyük əhəmiyyət kəsb etmişdir. O vaxtdan həmin ərazinin qorunması zərurəti yaranmış və 1913-1914-cü illərdən başlayaraq Qızılağac körfəzi xüsusi ərazi kimi mühafizə olunmağa başlanmışdır.

Nəhayət, 1926-cı ildə Qızılağac körfəzinə yasaqlıq statusu verilir və bu ərazidə ovçuluğa məhdudiyyət qoyulur. 1929-cu ildə isə keçmiş SSRİ Xalq Komissarları Sovetinin 3 iyun 337 saylı qərarı ilə Qızılağac körfəzi Xəzər dənizinin ətraf sahil zolağı ilə birlikdə qoruq elan edilir. Bu ərazidə hər cür təsərrüfat fəaliyyətinə qadağalar qoyulur. Qoruqda əvvəl flora və faunanın qorunmasına diqqət yetirilir. Sonradan isə qoruqda elmi-tədqiqat işlərinin aparılmasına başlanır. Bura dünyanın tanınmış elm adamları, ornitoloqlar, ixtioloqlar və hidroloqlar dəvət olunurlar.

Prezidentimizin sərəncamı ilə park statusu alan Qızılağac Milli Parkı Xəzər dənizinin cənub-qərbində yerləşir. Ərazisi dövlət başçısının sərəncamı ilə 99 min 60 hektara çatdırılmışdır. Böyük Qızılağac körfəzini və Salyan düzünün bir hissəsini əhatə edir. Eyni zamanda qoruğun sahəsi Lənkəran, Masallı, Neftçala rayonlarının əraziləri ilə həmsərhəddir.

Köçəri, su-bataqlıq və çöl quşlarının çoxaldılması, həmçinin təbii su-bataqlıq landşaft sahələrinin mühafizəsi məqsədilə yaradılmış Qızılağac Qoruğu 1976-cı ildə "Su-bataqlıq yerləri Konvensiyası"nın (Ramsar) suətrafı və suda üzən quşların məskunlaşması üzrə 12 beynəlxalq əhəmiyyətli qoruq sırasına daxil edilmişdir. Qoruq ərazisi müxtəlif təbii landşaft sahələrindən ibarətdir. Onun əsas hissəsini su akvatoriyası, cəngəlliklər və quru sahələr təşkil edir. Parkın florasını 370 növ, 4 az yayılmış növ, həmçinin Qafqazın 3 endemik növü, hibrid-qovağı, Qrosheym zəncirotu və sapa oxşar bağayarpağı təşkil edir.

Qızılağac Parkının zəngin təbii landşaftı və iqliminin mülayimliyi dünyanın müxtəlif yerlərindən quşların bura gəlməsinə səbəb olmuşdur. Uraldan, Tundradan, uzaq Sibirdən, Avropadan və başqa yerlərdən uçub gələn qırmızıdöş qaz, ağ durna, qu quşu, qızıl quş, qızıl qaz və s. qoruqda qışlayır. Misir, İraq, Sudan, Yeni Zelandiya və s. yerlərdən də bura yazda yuvalamaq üçün ərsindimdiklər, sarı və böyük Misir vağları, qırıldaqlar və s. uçub gəlirlər. Eyni zamanda qoruqda sultan toyuğuna, turaca, dovdağa, qu quşlarına, qızılboğaz vəhşi qaza, çöl qartalına və s. rast gəlmək olur. Qoruq ərazisində 270 növ quş məskunlaşır. Bu quşların 25 növü nadir quşlar kimi "Qırmızı kitab"a daxil edilmişdir. Qızılağac qoruğunda məməlilərin, sürünənlərin, suda-quruda yaşayanların və həşəratların bir çox növü yaşayır. Su hövzəsində isə 54 növdən çox balıq (siyənək, çəki, kütüm, kefal və s) eyni zamanda Xəzər suitisi məskunlaşıb.

Qızılağacın nadir bioresurslarından danışarkən qızılquşlar fəsiləsindən olan bəzi quşalara diqqət yetirmək istərdik. Bunun aktuallığı bir də onunla bağlıdır ki, son vaxtlar bəzi xarici turistlər bu quşlara xüsusi maraq göstərir, onları müxtəlif qanunsuz yollarla ələ keçirmək istəyirlər. Bu işdə yerli işbazlarımız xüsusi canfəşanlıq göstərirlər. Təbiətimizin əvəzsiz zənginliyini şəxsi maraqlarına dəyişirlər. Qızılquşların ovlanması nəticəsində onlar da nəsli kəsilmiş digər canlılara qovuşacaq. Bu yolverilməzdir. Təbiətsevərlər bu məsələlərdə çox diqqətli olmalı, ekoloqlara yaxından kömək göstərməlidirlər. Qeyd edək ki, adi qızılquş (Şahin) gözəlliyinə, nadirliyinə və "bacarığına" görə ovçularımızın, daha çox brakonyerlərin diqqətindən yayınmır. Adı "Qırmızı kitab"a düşən bu quşlar təbiətimizin əvəzsiz incisidir. Talış dağlarının meşə qurşağında, qayalarda və ağaclarda yuva quran bu quşlar Qızılağac körfəzində, Ağ göldə, Azərbaycanın digər ərazilərində qışlayır. Göyərçinlərlə, ördəklərlə, zağalarla qidalanır.

Ölkəmizin ərazisində şahinlərin bir neçə növü vardır. Aranda, dağlarda, Qızılağac Milli Parkında bəzən daimi, bəzən müvəqqəti məskən salan bu şahinlər quşların cəngavərləri, igidləridir. Bunları qorumaq, nəslinin kəsilməsinin qarşısını almaq lazımdır.




Milli Parkın ekosistemini qorumaq hamımızın ümumi işidir. Ovçuluq Təsərrüfatlarının İdarə Edilməsi və Ovçuluq Fəaliyyətinə Dövlət Nəzarəti Xidmətinin əməkdaşları ciddi iş rejimində işləyirlər. Son aylarda təkcə Biləsuvar ərazisində qanunsuz ov edənlərə qarşı lazımi tədbirlər görülmüş, 20 ov tüfəngi onlardan alınaraq hüquq-mühafizə orqanlarına təhvil verilmişdir. Bir daha qeyd etməliyik ki, lisenziya almaq istənilən ov məqsədləri ilə məşqul olmaq demək deyil. Təkcə kəmiyyət yox, keyfiyyət məsələləri də nəzərə alınmalıdır. Ovçuların ov ərazilərinə girişi də, çıxışı da nəzarətdə saxlanılmalıdır. Ov ancaq icazə verilmiş ərazilərdə, nəzərdə tutulmuş miqdarda və adları qeyd olunmuş quşlar və heyvanlarla məhdudlaşdırılmalıdır. Nadir quşları, heyvanları ovlamaq, onları qanunsuz ələ keçirmək qəti qadağandır.

Bunları qabartmaqda məqsədimiz odur ki, son vaxtlar respublika ərazisində bu cür bir neçə xoşagəlməz fakt aşkarlanmış, onların qarşısı ekoloqlarımız tərəfindən alınmışdır. Ona görə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi nadir quşların mühafizəsi, brakonyerlik hallarının qarşısının alınması və bu sahədə nəzarətin həyata keçirilməsi məqsədi ilə ciddi tədbirlər planı hazırlayaraq həyata keçirməkdədirlər. Sözsüz ki, bu sahədə ekoloji maarifləndirmənin gücləndirilməsi də böyük önəm daşıyır.

Bəzən təbiətə qarşı qəddarlıqlar bilərəkdən yox naşılıqdan yaranır. Təbiətə sevgi hər bir insanın həyat devizinə çevrilməlidir. Ətraf mühitin mühafizəsinə diqqətli olsaq, bu sevgi payını təbiətimizə bəxş etsək, insanlar üçün yaşamaq da gözəlləşər.

Qızılağac Milli Parkı böyüyür, inkişaf edir, flora və faunası zənginləşdirir, coğrafi sərhədlərini genişləndirir. İnsanlar arasında aparılan mədəni, ekoloji təbliğat həm ölkəmizdə, həm də xaricdə böyük əks-səda doğurur. Qızılağac Milli Parkı dənizin qoynunda qərar tutmuş əfsanəvi bir nağıl personajına, Nuh gəmisinə bənzəyir. Nəinki təbiətimizin, bütün dünyanın ən nadir flora və faunasını öz qoynunda qoruyan, gələcək nəsillərə əmanət saxlayan Qızılağac Milli Parkı, eyni zamanda çox əsrarəngiz bir ekoturizm məskənidir. Yay və qış aylarında turistləri də, quşları da qəbul etməyə, onlara qucaq açmağa hazırdır. Əbəs yerə deyil ki, hamı bu bölgəyə tələsir. Turistlər təbiətlə, onun min bir gözəlliyi ilə canlı təmasda olmaq istəyir. Xarici ekoturizm ölkəmizin bu sahədə də nailiyyətlərini əks etdirir. Hər yerdə, hər sahədə təbii bir dinamika göz oxşayır.

Oktyabrın 9-da Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin iclasında ölkənin doqquz aylıq inkişafının yekunlarını dərin, əsaslı təhlil edən dövlət başçısı ekoloji sahəyə də diqqət yetirdi. Prezident görülmüş işləri müsbət dəyərləndirərək qeyd etdi ki, son vaxtlar təbiətin qorunması sahəsində müəyyən irəliləyişlər nəzərə çarpır. Ancaq ekologiyaya, yaşıllığa qanunsuz müdaxilələrin kökü tam kəsilməmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, onun rəhbərliyi ekoloqları, təbiətsevərləri dövlət başçımızın qarşıya qoyduğu yeni vəzifələrin həyata keçirilməsinə səfərbər etməkdədir. Bu isə bir daha göstərir ki, təbiətimiz dövlətimizin daimi və etibarlı himayəsindədir.

***Bəxtiyar HÜSEYNOV,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, ekoloq***